# İnvestisiyaların stimullaşdırılması siyasəti: onu necə gücləndirmək olar?

Azər Mehtiyev

# Təqdimatın qısa məzmunu

- İnvestisiyalı əsaslı artım modelinə keçidin zəruriliyi
- 2000-2014-cü illər dövründə ölkədə investisiya fəallığının və investisiya proseslərinin xarakteristikası
- İnvestisiyaların stimullaşdırılmasına yönəlik dövlət siyasətinin çərçivələri
- Tövsiyələr

# İnvestisiyalara münasibətdə 3 fərqli mərhələ

- I mərhələ: 1991-2004 - *investisiyanı haradan cəlb etməli?*
- II mərhələ: 2004-2014 – *dövlət investisiyalarını haraya yönəltməli*?
- III mərhələ: 2015 - ...

*Ölkə iqtisadiyyatının investisiya potensialını necə artırmalı?*

*İnvestisiyaları necə cəlb etməli?*

*Resurslardan necə səmərəli istifadə etməli?*

# ÜDM-in real artım templərinin dəyişilməsi,
## əvvəlki ilə nisbətən, faizlə



# İndiki mərhələnin əsas çağırışları

- İnvestisiya əsaslı artım modelinə keçid
- daxili investisiyaların əsas mənbəyinin dövlət maliyyəsindən özəl sektorun üzərinə ötürülməsi
- dövlət investisiyalarının səmərəliliyinin (nəticəliliyinin artırılması) artırılmasl
- xarici birbaşa investisiyaların ölkənin emal sənayesi sahələrinə cəlb edilməsi

# Hökumətin son addımları

- Sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırlması şrtlərinin asanlaşdırılması
- Sahibkarlıq sahəsində yoxlamaların dayandırılması (2 il müddətinə)
- İnvestisiya təşviqi sənədinin verilməsi
- Daxili bazarın qorunması və yerli istehsalın stimullaşdırılması tədbirləri
- Qeyri-neft ixracının dəstəklənməsi (ixrac təşviqi, “made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqi  və s.)
- Regionların investisiya reytinqi
- Beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması üçün tədbirlər planı




| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Xarici investisiyalar, mln. ABŞ dolları | 927,0 | 1091,8 | 2234,9 | 3371,0 | 4575,5 | 4893,2 | 5052,8 | 6674,3 | 6847,4 | 5468,6 | 8247,8 | 8673,9 | 10314,0 | 10540,9 | 11697,7 | 10719,1 | 10161,1 |
| Daxili investisiyalar, mln. AZN | 460,3 | 437,7 | 546,0 | 938,3 | 1324,0 | 2104,9 | 2901,4 | 4626,7 | 7702,2 | 6079,9 | 7499,2 | 10199,0 | 12148,4 | 13178,9 | 12715,0 | 9058,5 | 6652,4 |

**2000-2014-cü illər dövründə**:

Cəmi investisiya: **158.6 milyard AZN** ($193.0 milyard);

o cümlədən:

- xarici investisiyaya: **75.7 milyard AZN** ($90.6 milyard) - 39.2%,
- daxili investisiya: **82.9 milyard AZN** ($102.4 milyard) - 60.8%

# 2000-2016-cı illər dövründə ölkə iqtisadiyyatına yönəldilən 201.5 milyard AZN məbləğində ümumi investisiyanın 167.0 milyardı (82.9%) əsas kapitala yönəldilib

| İqtisadiyyatın sahələri | Əsas kapitala investisiyanın məbləği (milyard AZN) | Ümumi yekunda xüsu-si çəkisi (%) |
|---|---|---|
| Neft-qaz sənayesi | 61.4 | 36.8 |
| Nəqliyyat və anbar təsərrüfatı | 21.7 | 13.0 |
| Tikinti | 16.7 | 10.0 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 8.0 | 4.8 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı | 6.4 | 3.8 |
| Emal sənayesi sahələri | 6.3 | 3.8 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 5.7 | 3.4 |
| İstirahət, əyləncə və incəsənət sahələri | 5.3 | 3.2 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 4.2 | 2.5 |
| Təhsil | 3.8 | 2.3 |
| Ticarət və nəqliyyat vasitələrinin təmiri | 3.6 | 2.2 |
| İnformasiya və rabitə | 2.9 | 1.7 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2.6 | 1.6 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1.5 | 0.9 |
| Digərləri | 16.9 | 10.1 |
| Yekun | 167.0 | 100.0 |

2003-cü ildə qeyri-neft sektorunda əsas kapitala yönəldilmiş investisiyaların məbləği 1.0 milyard AZN olduğu halda, 2013-cü ildə təqribən 12.8 milyard AZN olub, yəni 12 dəfədən çox artıb




| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Neft sektoru | 501,9 | 686,6 | 1448,3 | 2771,1 | 3708,1 | 3756,2 | 3408,5 | 3529,9 | 2922,4 | 2058,3 | 2958,5 | 3070,2 | 3854,5 | 5094,6 | 5959,4 | 7137,1 | 8648,0 |
| Qeyri-neft sektoru | 465,9 | 484,3 | 658,6 | 1015,3 | 1214,6 | 2013,7 | 2826 | 3941,3 | 7021,7 | 5666,6 | 6947,2 | 9728,8 | 11552,8 | 12756,2 | 11659,2 | 8819,9 | 7124,8 |

2000-2016-cı illər dövründə: cəmi xarici investisiyalar - $111.5 mlrd.;
*bundan*: neft–qaz sektoruna - $61.9 mlrd/ (55.5%);
maliyyə krediləri - $27.4 mlrd (24.6%),
birgə və xarici investisiyalı müəssisələr - $10.1 mlrd. (9.1%),
digər investisiyalar - $12.0 mlrd. (10.8%)

**Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyaların strukturu, mln. ABŞ dolları**




| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Digər investisiyalar | 0 | 0 | 0 | 114,9 | 90,2 | 164,4 | 278,6 | 655,3 | 644,7 | 993,2 | 1227,0 | 687,6 | 1796,2 | 1908,9 | 1767,9 | 1025,8 | 639,7 |
| Birgə və xarici investisiyalı müəssisələr | 118,0 | 79,3 | 45,6 | 45,4 | 104,2 | 230,5 | 368,4 | 439,1 | 494,1 | 624,4 | 659,6 | 886,0 | 1094,5 | 1041,0 | 1318,5 | 860,4 | 1706,2 |
| Neft sənayesinə | 546,1 | 820,5 | 1966,3 | 2972,4 | 4088,1 | 3799,9 | 3422,3 | 4003,3 | 3350,7 | 2412,7 | 2955,3 | 3407,8 | 4287,8 | 4935,2 | 6730,7 | 6622,7 | 5617,4 |
| Maliyyə kreditləri | 262,9 | 192,0 | 223,0 | 238,3 | 293,0 | 698,4 | 983,5 | 1576,6 | 2357,9 | 1438,3 | 3405,9 | 3692,5 | 3135,5 | 2655,8 | 1880,6 | 2210,2 | 2197,8 |

# Xarici investisiyaların sahə strukturu

- Neft-qaz hasilatı sənayesi
- nəqliyyat və anbar təsərrüfatı,
- elektroenergetika,
- tikinti sektoru (2010-cu ildən sonra)

Emal sənayesi xarici investorların xüsusi maraq dairəsində olmayıb: 2000-2015-ci illər dövründə ölkə iqtisadiyyatına cəlb edilən 86.7 milyard manatlıq ümumi investisiyanın yalnız **319.4 milyon manatı** (0.4%-i) emal sənayesi sahələrinə yatırılıb.

- Bu vəsaitin 301 milyon manatı 2009-cu ilədək cəlb edilib,
- 2010-cu ildən sonrakı dövrdə emal sənayesinə xarici investisiya, demək olar, yönəldilməyib.

## 2000-2016-cı illərdə birgə və xarici investisiyalı müəssisələr üzrə sərmayələrin ölkə strukturu (ABŞ dolları)



2000-2015-ci illər dövründə daxili mənbələrdən əsas kapitala cəmi 91.9 milyard AZN sərmayə yönəldilib ki, bunun da **63.0 milyardı (68.6%-i) dövlət**, qalan 28.9 milyardı (31.4%-i) isə qeyri-dövlət mülkiyyətinə mənsub olub






2000-2015-ci illər dövründə daxili investisiyaların artım tempinin ümumi trend xətti aşağıya meyllidir: dövrün əvvəlinə olan yüksək artım templəri aşağı artım templəri ilə əvəzlənib, hətta 2015-ci ildə mənfi işarəyə keçib

# 2000-2015-ci illər dövründə daxili mənbələr hesabına əsas kapitala investisiyanın sahə strukturu



# Əsas kapitala yönəldilmiş investisiyaların texnoloji quruluşu (mln. AZN), faktiki qiymətlərlə






| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ÜDM-in artım tempi | 109,9 | 108,7 | 113,8 | 114,8 | 113,6 | 108,3 | 111,9 | 111,4 | 116,0 | 103,7 | 107,9 | 109,4 | 109,7 | 110,0 | 107,0 | 101,1 | 95,5 |
| Kapital qoyuluşunun artım tempi | | 103,9 | 136,0 | 154,2 | 119,6 | 165,8 | 140,3 | 139,5 | 178,2 | 80,7 | 122,6 | 140,0 | 118,7 | 110,4 | 91,4 | 75,6 | 80,8 |

Ölkədə dövlət investisiyaları hesabına son illər kifayət qədər infrastruktur kapitalı yaradılmasına baxmayaraq, xüsusilə emal sənayesində və kənd təsərrüfatında özəl investisiya fəallığının aşağı olması qeyri-neft sektoruna yönəldilən investisiyanın məhsuldarlığını aşağı salır

**Maliyyə mənbələri üzrə əsas kapitala investisiyaların dinamikası (mln. AZN)**




| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sair vəsaitlər | 52,6 | 20,6 | 16,3 | 231,8 | 93,0 | 32,8 | 21,5 | 19,3 | 3,1 | 0,9 | 20,9 | 26,7 | 33,9 | 89,0 | 182,1 | 166,6 | 319,1 |
| Əhalinin şəxsi vəsaiti | 45,3 | 70,5 | 86,9 | 122,1 | 216 | 331,8 | 239,1 | 254,4 | 294,4 | 309,4 | 373,2 | 345,2 | 406,5 | 455,2 | 561,3 | 699,8 | 674,8 |
| Büdcədənkənar fondların vəsaitləri | 8,3 | 5,8 | 44,2 | 26,5 | 13,2 | 72,7 | 257,7 | 476,3 | 655,6 | 480,4 | 570,5 | 390,8 | 565,2 | 540,5 | 390 | 297,4 | 146,3 |
| Büdcə vəsaitləri | 28,4 | 23,7 | 47,4 | 110,6 | 118,5 | 193,6 | 883,5 | 1852,4 | 3859,9 | 2705,9 | 3255,3 | 5466,5 | 6849 | 8080,4 | 6724,7 | 3133,1 | 2072,5 |
| Bank kreditləri | 131,9 | 96,0 | 165,2 | 187,3 | 268,3 | 372,1 | 425 | 398 | 400,8 | 417,1 | 643,8 | 809,4 | 826,6 | 859,0 | 630,5 | 1479,4 | 2198,1 |
| Müəssisə və təşkilatların öz vəsaitləri | 689,2 | 954,2 | 1746,9 | 3108,1 | 4213,7 | 4767 | 4407,6 | 4470,7 | 4730,3 | 3811,3 | 5041,9 | 5760,5 | 6726 | 7826,6 | 9130 | 10180,7 | 10588,4 |

2005-ci illə müqayisədə 2013-cü ildə:

dövlət büdcəsindən əsas kapitala investisiyaların məbləği 41.7 dəfə;
bank kreditləri ilə kapital qoyuluşunun məbləği 2.3 dəfə,
müəssisə və təşkilatların vəsaiti ilə investisiyalar cəmi 64.2 faiz,
əhalinin şəxsi vəsaitləri hesabına investisiyalar isə 37.2 faiz artıb

# Daxili investisiyalar üzrə əsas problemlər

- dövlət investisiya layihələrinin qiymətləndirilməsi mexanizmi yoxdur;
- iri dövlət müəssisələrində müasir səmərəli menecmentinin tətbiqi istiqamətində yetərincə adımlar atılmayıb;
- emal sənayesinə yönəldilən investisiyalar əhəmiyyətli hissəsi dövlət büdcəsi hesabına güzəştli şərtlələ verilən resurslardan ibarət olub;
- biznes-investisiyaların məbləği qeyri-neft ÜDM-in təqribən 1 faizindən çox deyil;
- emal sənayesi və kənd təsərrüfatına verilən kreditlərin (hər biri üzrə ayrılıqda) ölkənin bank sektorunun ümumi kreditlərində payı 3-5%-i qədər olub;
- ölkədə kapital bazarlarının miqyasları son dərəcə kiçikdir, investisiya fondları ümumiyyətlə yaranmayıb;
- ölkədə fəaliyyət göstərən dövlət investisiya təşviqi təsisatlarının hamısının fəaliyyətinin səmərəli və nəticəli qurmaqla bağlı problemləri var

# İnvestisiyaların stimullaşdırılması zəruriəti nədən yaranır?

- azad bazar münasibətləri şəraitində investisiya prosesləri də bazarın “görünməz əli” tərəfindən sərbəst şəkildə tənzimlənir

- bazar stimullarının yetərsizliyi (xərclərin çox, gəlirlərin az olması, informasiya və bilik çatışmazlığı və s.),
- bazar tənzimlənməsi ictimai baxımdan səmərəli olmaması (bazar tənzimlənməsi ictimai əhəmiyyətli nəticələri - çoxtərəfli və davamlı inkişafı təmin edə bilmir)

- hökumət düzgün seçilmiş siyasət vasitəsilə mövcud maneələri (problemləri) aradan qaldırmalı və bazar mexanizminin (haqlı rəqabətin) bərpasına nail olmalıdır

# Hökumətin səmərəli investisiya siyasəti

- investisiya fəallığına mane olan bütün (bazar və qeyri-bazar xarakterli) səbəblər düzgün müəyyən edilməlidir
- bunların hər birinin aradan qaldırılması üçün zəruri siyasət alət və vasitələri düzgün seçilməlidir
- işlənilmiş siyasət düzgün icra edilməlidir

- Diqqət: müxtəlif ölkələrdə və iqtisadiyyatın müxtəlif sahələrində eyni siyasət alətləri və vasitələri fərqli nəticələr verə bilər, habelə zaman keçdikcə və vəziyyət dəyişdikcə tətbiq olunan siyasət alət və vasitələrinin təsirləri də dəyişilir

# İnvestisiya prosesinin iki tərəfi: tələb və təklif

- investisiyaya tələbin səviyyəsi
- İnvestisiya təklifinin səviyyəsi
- İnvestisiya riski (ümumi iqtisadi institutların ən mühüm dəyişəni (göstəricisi) hesab olunur):

  ekspropriasiya riski,

  əldə edilmiş gəlirin (mənfəətin) repatriasiyası asanlığını

  ödənişlərin gecikməsi ehtimalı

# Stimullaşdırıcı investisiya siyasətinin çərçivələri

- siyasətin icrası üçün istifadə olunan alət  və tədbirləri *institutlarla qarışıq salmaq* olmaz;
- islahatlarda önəmli olan  kəmiyyət məhdudiyyətləri və tariflərin səviyyəsi yox, *bundan sonra qərarların necə qəbul edilməsi və necə icra edilməsinə münsibətdə islahatların yaradacağı yeni qaydalar və gözləntilərdir*;
- institutsioal islahatlar yalnız siyasətin parametrlərini yox, həm də *indiyəcən mövcud olmuş və inkişafa mane olan davranış stereotiplərini* dəyişməlidir
- həyata keçirilən siyasətlər və institutların təkmilləşdirilməsi prosesi yanaşı baş verməliu və bir-birini qarşılıqlı tamamlamalıdır
- daha təsirli (yəni “əlaqələndirici”) problemin aradan qaldırılmasına və daha nəticəli hesab olunan bir və bir neçə islahata üstünlük verməlidir
- islahatlar yaxşı layihələndirilməli, ziddiyyətli olmamalı və ardıcıllıq təmin edilməlidir.

## Artım Diaqnostikasının Qərarlar Ağacı

### Problem: Özəl investisiyaların və sahibkarlığın aşağı səviyyəsi




Mənbə: R. Hausmann, D. Rodrik, A. Velasco. Growth Diagnostics. 2005

# İnvestisiyaların institutsional keyfiyyətinin əsas amilləri

- bürokratiyanın keyfiyyəti;
- qanunun aliliyi (qanunçuluq);
- eksproriasiya riski;
- dövlətin müqavilə öhdəliklərindən boyun qaçırması.
- cəmiyyətdə bir ictimai qrup tərəfindən başqa ictimai qrupun mülkiyyətinin zorla əlindən alınması

**D. Rodrik:** aşağı səviyyəli investisiyalı iqtisadiyyatdan yüksək səviyyəli investisiyalı iqtisadiyyata keçmək üçün ümumi iqtisadi institutların səmərəli işini təmin edə bilən yüksək keyfiyyətli dövlət qurumları həlledici rol oynayır:

# Uğurlu sənaye siyasəti

- uğurlu sənaye siyasətinin ilkin rəhni – sənaye siyasətinin hazırlanması zamanı hakimiyyətin *xüsusi və siyasi maraqlardan uzaq dayanma bacarığıdır*: sənaye siyasətinin formalaşmasına bu maraqlar təsir göstərməməlidir.

(*Amerikalararası İnkişaf Bankının prezidenti Luis A. Moreno* )

- İrlandiya: Sənaye İnkişafı Agentliyi özünün texniki səriştələri hesabına layihələrin seçilməsi prosesinin səmərəliliyini və vicdanlılığını təmin edə bilib.

- Çili: iqtisadiyyatın daha perspektivli sahələrinin seçilməsini təmin etmək üçün müstəqil bir qurumu – Boston Konsalting Grupu bu işə cəlb edib.

## Uğurlu sənaye siyasətinin formalaşdırılması üçün 3 sual

i. bazar tənzimlənməsinin açıq-aydın görünən "uğursuzluqları" varmı və dövlətin belə müdaxiləsi nə qədər əsaslıdır?

ii. Təklif olunan tədbirlər bazar "uğursuzluqları"nı aradan qaldıra biləcəkmi?

iii. Ölkədə sənaye siyasətini həyata keçirə bilən institutlar varmı?

- Kosta-Riko təcrübəsi: düyü istehsalına subsidiyalar
- Argentina təcrübəsi: daha məhsuldar yeni düyü növlərinin yaradılmasının dəstəklənməsi

# Təklif və tövsiyələr

## 1. İnvestisiyaların stimullaşdırılması siyasətinin formalaşdırılması sahəsində;

- vahid investisiya siyasəti işlənib hazırlanmalıdır
- zəruri institutsional islahatların hədəfləri və icra mexanizmləri dəqiq ifadə edilməklə ictimaiyyətə açıqlanmaldırı
- mülkiyyət hüquqlarının formal yox, real olaraq qorunmasını təmin edən mexanizmlər işə salınmalıdır (məmur sahibkarlığı, gəlir bəyənnamələri, qanunçuluq və s.)
- məhkəmə sisteminin müstəqilliyinin və ədalətliliyinin təminatı
- biznesə yönəlik qərarlarının qəbul edilməsi mexanizmləri dəyişilməlidir
- biznesin xərclərinə və gəlirlərinə təsir göstərən  qərarların gizli qəbul edilməsi praktikasından imtina edilməlidir

# Təklif və tövsiyələr

## 2. Dövlət investisiyaları sahəsində:

- bundan sonra dövlət investisiya fəaliyyətinin əsas ağırlıq mərkəzi “insan kapitalı”nın inkişafına keçirilməlidir
- dövlət sektorunun miqyası kiçildilməlidir: böyük neft gəlirləri dövründə həyata keçirilmiş “dövlətin genişləndirilməsi” siyasətindən imtina edilməlidir
- dövlət investisiya layihələrinin qiymətləndirilmsi mexanizmi haırlanmalı və tətbiq edilməlidir
- sıçrayışlı artıma töhfə vermək üçün dövlət tərəfindən xüsusi dəstək proqramlarına cəlb ediləcək sahələrin seçim meyarları və mexanizmləri işlənilməlidir

# Təklif və tövsiyələr

## 3. Xarici investisiyaların stimullaşdırılması sahəsində:

- ölkənin qeyri-neft sektoruna, xüsusilə ixrac yönümlü emal sənayesi sahələrinə birbaşa xarici investisiyaların cəlb edilməsi üçün xüsusi müddətli proqram işlənilməlidir

- müəyyən məhsulların istehsalı üzrə dünyaca tanınmış bir neçə şirkətin ölkəmizdə fəaliyyətinin qurulması üçün onlarla fərdi danışıqlar aparılmalı  və onların fəaliyyəti üçün şərait yaradılmalıdır

- ölkənin qeyri-neft sektoruna xarici investorların cəlb edilməsi işinin yaxşılaşdırılması üçün AZPROMO-nun fəaliyyətində ciddi dəyişikliklər edilməlidir

# Təklif və tövsiyələr

## 4. Daxili investisiyaların stimullaşdırılması sahəsində:

- sıçrayışlı artımı təmin edəcək sahələrin seçilməsi zamanı emal sənayesi sahələrinə üstünlük verilməlidir;
- ölkədə fəaliyyət göstərən dövlət investisiya təşviqi təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi və gücləndirilməsi istiqamətində işlər aparılmalıdır
- mikro və kiçik sahibkarlara, xüsusilə yeni işə başlayan təşəbbüskarlara xüsusi dəstək proqramları yaradılmalıdır
- dövlətin yaxından iştirakı ilə ixtisaslaşdırılmış sahə banklarının yaradılması təmin edilməlidir;

**Diqqətinizə görə minnətdaram!**